Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2026, **s. 37-42**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2026, **с. 37-42**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2026, **p. 37-42**

UOT 78.06

Ə.B.Süleymanova
müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: afasulejmanova@gmail.com
ORCİD İD: 0009-0000-0575-0052

XOR DƏRNƏKLƏRİNDƏ MUSİQİ MÜƏLLİMİNİN FƏALİYYƏT XÜSUSİYYƏTLƏRİ

https://doi.org/10.30546/170899876.101.01.2026.37

Açar sözlər: *musiqi təlim-tərbiyəsi**,** xorla oxuma, bədii-estetik zövq, peşəkar ustalıq*

Məqalə musiqi müəlliminin xor dərnəklərində fəaliyyət xüsusiyyətlərinin araşdırılmasına həsr edilmişdir. Burada qeyd olunur ki, müasir təlim-tərbiyə konsepsiyasında gənc nəslin incəsənət, musiqi vasitəsitələri ilə tərbiyəsi mühüm rol oynayır və onun formalarından biri özfəaliyyət musiqi dərnəkləridir. Məqalədə vurğulanır ki, gənc nəslin bədii-estetik zövgünün formalaşmasında, mədəni insan kimi böyüməsində xor musiqisinin böyük əhəmiyyəti var. Eləcə də burada musqi müəlliminin xorda bir sıra spesifik iş xüsusiyyətləri göstərilir: fəaliyyətinin vokal müəllimi, tərbiyəçi, pedaqoq, psixoloq və s. kimi tərəfləri açıqlanır.

А.Б.Сулейманова

ОСОБЕННОСТИ ДЕЯТЕЛЬНОСТИ УЧИТЕЛЯ МУЗЫКИ В ХОРОВОМ КРУЖКЕ

Ключевые слова: *музыкальное воспитание и обучение, хоровое пение, художественно-эстетический вкус, профессиональное мастерство*

Статья посвящена изучению особенностей деятельности учителя музыки в хоровых кружках. Отмечается, что в современной концепции образования важную роль играет воспитание молодого поколения посредством искусства и музыки, одной из форм которого являются самодеятельные музыкальные кружки. В статье подчеркивается, что хоровая музыка имеет большое значение в формировании художественно-эстетического вкуса молодого поколения и в

его становлении как культурной личности. Также здесь показан ряд специфических особенностей работы учителя музыки с хором: раскрыты такие аспекты его деятельности как учителя вокала, воспитателя, педагога, психолога и др.

A.B.Suleimanova

THE USE OF EDUCATIONAL OPPORTUNITIES MEANS OF MUSICAL EXPRESSION IN MUSIC TEACHING

Keywords: *musical education and training, choral singing, artistic and aesthetic taste, professional skill*

The article is devoted to the study of the characteristics of the music teacher's activities in choral circles. It is noted that in the modern concept of education, the upbringing of the younger generation through art and music plays an important role, and one of its forms is amateur music circles. The article emphasizes that choral music is of great importance in the formation of the artistic and aesthetic taste of the younger generation and in their growth as a cultured person. Also, a number of specific work features of the music teacher in the choir are shown here: such aspects of his activity as a vocal teacher, educator, pedagogue, psychologist, etc. are disclosed.

Müasir təlim-tərbiyə konsepsiyasında gənc nəslin incəsənət, musiqi vasitəsitələri ilə tərbiyəsi mühüm rol oynayır. Musiqi vasitəsilə tərbiyə işini isə ümumtəhsil məktəblərində musiqi müəllimləri həyata keçirirlər. "Ümumtəhsil məktəbində musiqi müəlliminin fəaliyyəti çoxşaxəlidir: o, həm tərbiyəçi-müəllim, həm konsertmeyster, həm nəzəriyyəçi-müəllim və ən başlıcası isə dirijor-xormeyster kimi çıxış edir." (1; s. 3).

Musiqi təlim-tərbiyə formalarından biri özfəaliyyət musiqi dərnəkləridir. "Bu dərnəklər şagirdlərin bədii yaradıcılığını, musiqi qabiliyyətlərini inkişaf etdirir, dünyagörüşlərini və bədii-estetik zövqlərini formalaşdırır, öz hissiyatlarını musiqi, ritm, mahnı, rəqs və s. vasitəsilə ifadə etməyi öyrədir, asudə vaxtlarının səmərəli keçməsinə və incəsənət sahəsində xüsusi istedada malik olanların aşkara çıxarılmasına kömək edir."(2 ; s. 4).

Ölkəmizin musiqi mədəniyyətinin inkişafında, gənc nəslin bədii-estetik zövgünün formalaşmasında, mədəni insan kimi böyüməsində xor musiqisinin böyük əhəmiyyəti var. Xor ifası bədii fəaliyyətin ən geniş və demokratik forması olaraq insanların mənəvi aləmlərini, düşüncə və hisslərini, arzu və istəklərini, dünyagörüşlərini əks etdirir. "Uşaq xor ifası təkcə musiqi-estetik tərbiyənin vasitəsi deyil, o, həm də uşağın fiziki tərbiyəsinin ən effektiv

vasitələrindən biridir...” (5; s.4). Xor dərnəkləri məşğələlərinin məktəblərdə tədris olunan bir sıra fənlərlə əlaqələndirilməsi həmin məşğələlərin məzmununu zənginləşdirməklə bərabər, şagirdlərin ümumi dünyagörüşünün, yaradıcılıq bacarıq və vərdişlərin formalaşmasına yaxından kömək edir.

Beləliklə, “Xorla oxuma məktəbdə musiqi tərbiyəsinin kütləvi formasıdır. Xorla oxuma prosesində şagirdlər tədricən vokal vərdişlərinə yiyələnir və həm də kollektivçilik ruhunda tərbiyə olunurlar.” (4; s.80)

Xorla oxumanın əsasında düzgün vokal-texniki ifa mədəniyyəti durur. Buna görə də məhz oxu vərdişləri üzərində iş xor işinin özülünü təşkil edir. Xora rəhbərlik edən musiqi müəlliminin vəzifələri bir növ vokal müəlliminin işinə bənzəyir, lakin burada iş bir qədər də mürəkkəbləşir, çünki xormeyster bir nəfərlə deyil, ifaçılar kollektivi ilə iş aparır. Müəllim daim öz ustalığı üzərində çalışmalı, hər an öz səsi ilə bu və ya digər ştrixi, nüansı, priyomu göstərə bilməlidir.

Bunu da qeyd etməliyik ki, xor dərnəklərinə şagirdlər öz istəkləri ilə yazılmalıdır. Müəllim uşaqların səslərini və eşitmə qabiliyyətlərini yoxlamalı və onların içindən ən istedadlı və bacarıqlı olanları seçməlidir. Xor iştirakçıları məşğələlərin günlərini və saatlarını dəqiq bilməlidir. Müəllim şagirdlərin içindən ən qoçaq və uşaqlar arasında nüfuzu olanı xora başçı təyin etməlidir. Müəllimin jurnalı olmalıdır və orada davamiyyətin qeydiyatı aparılmalıdır. Xorun işini ümumməktəb tədbirlərini nəzərə alaraq planlaşdırmaq xüsusilə vacibdir. Məsələn, Novruz Bayramı, Bayraq və ya Qələbə günü üçün müvafiq əsərləri öyrənib, məktəb səhnəsində çıxış etmək yaxşı olar. Xor iştirakçıları ümumməktəb tədbirləri ilə özlərinin həmrəy, şərik olmalarını hiss etməlidirlər.

Xor dərnəyinə rəhbərlik edən mütəxəssisin səviyyəsi çox vacib bir məsələdir, çünki rəhbər həm dərnəyə iştirakçıları düzgün seçməlidir, həm məşq və təlim-tərbiyə prosesini nizam-intizamlı və sistemli qurmalıdır, həm də düzgün repertuar seçməlidir. Bundan əlavə hər bir dərnəyin rəhbəri öz sahəsində öyrətmə metodlarına malik olmalı, hər yaş qrupuna aid olan uşaqların həm fizioloji, həm də psixoloji xüsusiyyətlərini bilməlidir. Yəni rəhbər həm öz sənətinin mükəmməl bilən professional, həm pedaqoq-metodist, həm psixoloq və tərbiyəçi olmalıdır.

Məktəbli uşaq xorlarının müxtəlif növləri mövcuddur: kiçik xor (aşağı sinif şagirdlərindən ibarət), yeniyetmə xoru (orta və yuxarı sinif şagirdlərindən ibarət), oğlanlar xoru, uşaq folklor xorları, uşaq caz xoru və s.

Sinifdən xaric xor dərnəkləri müəyyən pedaqoji prinsip və metodlar əsasında fəaliyyət göstərməlidir. Bunlar aşağıda göstərilənlərdir:

– Xor dərnəklərində tədris məsələlərinin həlli tərbiyəvi xarakter daşımalıdır. Yəni şagirdlərə mahnı ifa priyomlarını öyrədərkən, onlara müxtəlif vokal-xor vərdişlərini aşılayarkən, eynizamanda sezdirmədən, gözə çarpmadan onlarda müxtəlif müsbət keyfiyyətləri tərbiyə eymək lazımdır.

– İdeyalılıq prinsipi. Məlumdur ki, musiqi güclü ideoloji təsirə malikdir. Bunu nəzərə alaraq, xor dərnəklərinin repertuarını tərtib etdikdə elə əsərlər seçmək lazımdır ki, onlar uşaqlarda doğma torpağa, təbiətə sevgi, vətənpərvərlik, milli dəyərlərə, ənənələrə və əxlaqa hörmət, eynizamanda beynəlmiləlçilik və insan ləyaqətinə hörmət hisslərini oyadıb inkişaf etdirsin.

Məsələn, A.Dadaşovun "Ey, vətən əsgəri", N.Mirməmmədlinin "Qələbə marşı", R.Şəfəqin "Sizinlə yandı vətən" və digər bəstəkarların bu səpkidə olan mahnıların iseyasındakı mübarizə ruhu, qələbə əzmi, zəfər yürüşünün əks-sədası mərd mübarizlərin və doğma torpağının azadlığı uğrunda canlarından keçməyə hazır olanların poetik vəsfi hər bir şagirdi vətənpərvər insan kimi tərbiyə edir. Lakin yüksək bədii ideyalı əsərlər sırasına təkcə bilavasitə təbliğat xarakterli əsərləri aid etmək düzgün olmaz. Xalq musiqi intonasiyaları əsasında qurulan gözəl lirik mahnılar və ya yumor dolu məzəli bir mahnı da tərbiyəvi əhəmiyyətə malikdir. Hətta təbiət-mənzərə lirikası olan əsərlər də mərhəmət, xeyirxahlıq kimi insani hissləri oyada bilər və humanist şəxsiyyətin formalaşmasına kömək edə bilər.

– Məktəb xor dərnəklərində iş aparılarkən uşaqların yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Dərnəklərin repertuarını tərtib edərkən bu prinsipə ciddi fikir verilməlidir. Məktəbli xorunda vokal-xor işi ayrı-ayrı qruplara müfafiq olaraq, uşaqların psixi və fizioloji xüsusiyyətlərinə və səs mexanizmi xassələrinə görə aparılmalıdır. Uşaq xorunu təşkil edən rəhbər mütləq bunları yadda saxlamalıdır.

– Məktəb xor dərnəkləri işinin təşkilində mümkünlük, imkanlılıq prinsipi də böyük əhəmiyyət kəsb edir. Yəni öyrənilən əsərlərin texniki çətinlikləri uşaq xorunun imkanlarına uyğun olmalıdır, bundan başqa əsərlərinin ideya-fəlsəfi məzmunu da uşaqların anlamaları üçün mümkün olmalıdır. Bəzi əsərlər texniki cəhətdən asan olsalar da, onların dərin fəlsəfi mənasını şagirdlərə dərk etmək çox çətindir. Və bunun tam əksi olaraq, məzmununa görə mürəkkəb olmayan bir mahnı texniki cəhətdən çox çətin ola bilər.

– Məktəb xor dərnəkləri işinin təşkilində şagirdlərin fərdi xüsusiyyətləri də nəzərə alınmalıdır. Bu iş xorun rəhbərindən böyük pedaqoji məharət tələb edir. Müəllim həm pedaqoq, həm də psixoloq kimi çıxışetməlidir. Uşaqların seçilməsindən tutmuş məşğələ prosesinə qədər keçən yolda xor rəhbəri hər bir uşağın fərdi xüsusiyyətlərinə uyğun yanaşmalı, onun bütün güclü və zəif cəhətlərini öyrənməlidir. Bunun üçün müəllimin xüsusi qeyd dəftəri olsa daha yaxşı olar. Uşaqların fərdi xüsusiyyətlərini öyrənən zaman onların ailə tərbiyəsini və vəziyyətini nəzərə almaq da məsləhətdir.

– Məktəb xor dərnəklərində işin təşkilində sistemlilik və ardıcıllıq prinsipinə əməl olunmalıdır. Vokal-xor bacarıq və vərdişləri uşaqlara yavaş-yavaş, həm də ardıcıl surətdə bir-biri ilə əlaqəli olaraq aşılamaq lazımdır. Yəni hər bir sonrakı məşğələ həm məzmunu, həm də məntiqi cəhətdən ondan öncə

gələnin davamı olmalıdır. Ancaq belə olan halda uğurlu nəticələr əldə etmək mümkündür.

Özfəaliyyət xor dərnəkləri öz işlərini bir neçə formada aparırlar:

1. Məktəb xor dərnəklərində məşğələ şəklində aparılan iş.
2. Xor dərnəklərində məktəbdaxili tədbirlər üzrə aparılan iş.
3. Xor dərnəklərində məktəbdən xaric tədbirlər üzrə aparılan iş.

Bütün yuxarıda adları çəkilən məktəb xor dərnəklərinin iş formaları sinifdən kənar işə aid olunur.

Xorun məşq prosesini şərti olaraq iki hissəyə bölmək olar: təmrinlər (vokal-xor məşğələləri) və bədii əsərlər üzərində iş. Təmrinlər xor məşğələsinin çox vacib bir hissəsidir. Burada səs aparatının hazırlanması, "isinməsi" aparılır. Lakin bununla təmrinlərin funksiyaları məhdudlaşmır. Onlar həm də konkret vokal-xor vərdişlərinin mənimsənilməsinə yönəldilməlidir. Lakin təkcə təmrinlərlə, bədii əsərlərin ifası olmadan vokal texnikasına yiyələnmək mümkün deyil. Vokal-texniki vərdişlər bədii ifadəlilik vasitəsi olmaqla, müxtəlif təmrinlər vasitəsilə təkmilləşir, lakin bədii əsər üzərində aparılan iş zamanı möhkəmlənir, zənginləşir və tamamlanır.

Məktəbdaxili tədbirlərə aşağıdakılar daxildir: məktəbdaxili konsertlərdə çıxışlar, müxtəlif bayram tədbirlərində çıxışlar, məktəb mahnı bayramlarında, musiqi lektoriyalarında, leksiya-konsertlərdə çıxışlar, karnaval və bal gecələrində çıxışlar. Bunları həyata keçirmək üçün, hər şeydən əvvəl, işin planlaşdırılması tələb olunur. Lakin plan işin bir cəhətidir. Əsas məsələ plandakı tədbirlərin praktiki həllidir, həyata keçirilən işin dolğun və məzmunlu olmasıdır.

Kütləvi estetik tədbirlərin həyata keçirilməsi üçün düzgün metodika seçilməlidir. Məsələn, tədbiri aşağıdakı sistem üzrə aparmaq olar: a) tədbirin mövzusunun müəyyənləşdirilməsi (mövzu ilə əlaqədar materialların seçilməsi və təşkilati işə cəlb olunanaların müəyyənləşdirilməsi); b) tədbirin planının tərtib edilməsi (ssenarinin yazılması, repertuarın tədbirin ssenarisinə uyğun tərtib edilməsi); c) tədbirin keçirilməsi üçün hazırlıq işlərinin görülməsi; d) tədbirin keçirilməsi, e) keçirilmiştədbirin müzakirəsi.

Məktəbdən xaric tədbirlərə ümumtəhsil məktəblər arasında keçirilən xor ifaçılığı üzrə müsabiqələrdə çıxışlar, səhər və yaxud rayon mahnı festivallarında çıxışlar, şəhər və yaxud rayon səhnələrində çıxışlar, Azərbaycanda fəaliyyət göstərən müxtəlif ölkələrin səfirlikləri tərəfindın keçirilən tədbir və bayramlarda çıxışlar, Azərbaycab Bəstəkarlar İttifaqı tərəfindən keçirilən müsabiqə, tədbir və bayramlarda, bəstəkarların yaradıcılıq gecələrində çıxışlar. Bu tədbirləri uğurla keçirmək üçün planlı şəkildə və çox ciddi hazırlaşmaq lazımdır.

Uşaq xor kollektivinin təşkilində ən mürəkkəb vaxt – ilkin mərhələdir ki, bu zaman onun vahid bir yaradıcı cəmiyyətə toplanması baş verir. Bu

mərhələdə mürəkkəb təşkilati və didaktik məsələləri həll edən rəhbərin təcrübəsi və ustalığı çox böyük əhəmiyyət kəsb edir. Müxtəlif musiqi qabiliyyətlərinə və səs imkanlarına, ümumi inkişafın və tərbiyənin müxtəlif səviyyələrinə, müxtəlif maraqlara və zövqlərə malik olan uşaqları toplayıb bir kollektivdə ümumi işə cəlb etmək – uşaq xor kollektivinin təşkili prosesində ən ağır və çətin məsələdir. Uşaqları bu fəaliyyətə cəlb etmək və maraqlandırmaq üçün xorun rəhbəri çox böyük səylər göstərməlidir ki, onun ilk addımları uğurlu olsun.

Beləliklə, məktəbli xor dərnəyində çalışan musiqi müəllimi bir sıra bilik və bacarıqlara malik olmalıdır. O, səsin düzgün quruluşunu, uşaq səs aparatının quruluşu, inkişafı, gigiyenası, mühafizəsi işini bilməlidir. Həmçinin başqasına xorla oxumağı öyrədən musiqi müəllimi özü düzgün oxumağı bacarmalıdır. Bu peşəkar biliklərdən əlavə o, pedaqoji ustalığa malik olmalı, uşaqların yaş və fərdi xüsusiyyətlərini bilməli, uşaq qəlbinin və psixologiyasının xəssasiyyətlərini dərindən hiss etməlidir.

ƏDƏBİYYAT

1. G.Ə.Axundova. Uşaq xor kollektivi ilə işin metodikasında təlim, tərbiyə və inkişaf məsələlərinin qarşılıqlı əlaqəsi. Bakı, ADPU, 2019, 33 səh.

2. M.T.Əliyeva. Məktəbli xoru ilə işin əsasları. Bakı: ADPU, 2020, 43 səh.

3. F.Hidəyətova. Musiqi və vətəndaşlıq tərbiyəsi. Bakı, 2009, 188 səh.

4. J.Qədimova. Musiqinin tədrisi metodikası. Bakı: ADPU-2007, 323 səh.

5. Məmmədova M. "Xorla oxuma təlimi metodikanın əsasları", dərs vəsaiti, Bakı, 2015, 124 səh.

6. F.Sadıqov. Bədii yaradıcılıq dərnəkləri. Bakı: "Təbib", 1996, 192 səh.

Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 01.05.2026
Məqalənin çapa qəbul olunma tarixi: 14.05.2026
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru Kəmalə İsmayılova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.